Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası
Azərbaycan Qeyri-Hökumət Təşkilatları Koalisiyası
For Improving Transparency in Extractive Industries
The Coalition of Azerbaijan Non-Goverment Organization

# "MƏDƏN SƏNAYESİNDƏ ŞƏFFAFLIĞIĞN ARTIRILMASI" KOALİSİYASININ İNFORMASİYA BÜLLETENİ

## № 21

**Redaksiya heyəti**

**Redaktor:**
Dünya Sakit

**Məsul katib:**
Süheylə Cəfərova

**Tərcüməçi:**
Nərmin Mirzəyeva

**Ünvan:**
AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə

**Tel:** 598 44 31, Faks: 598 44 31
**Mob.:** 357 04 62
**E-mail:** office@eiti-az.org

## Mündəricat

- Milli Məclis yeni neft sazişlərini ratifikasiya edib (2)
- Yeni neft sazişləri ictimaiyyətdə narahatlıq yaradıb (3)
- Koalisiya növbəti mərhələ üçün fəaliyyət prioritetlərini müəyyənləşdirib (4)
- Beynəlxalq EİTİ İdarə Heyətinin növbəti iclası keçirilib (4)
- Koalisiyaya yeni üzvlər qəbul olunub (5)
- "Neft Fondu haqqında" qanun layihəsi hazırlanıb (6)
- Qızıl emalı zavodunun açılışı olub (7)
- «Mədən Sənayesində növbəti sayı çapdan çıxıb (8)
- Koalisiyanın 9-cu hesabatla bağlı rəyi Memorandum tərəfləri ilə müzakirə olunub (9)
- EİTİ üzrə Çoxtərəfli Qrupun formalaşdırılmasına başlanıb (10)
- İlk üç ayda Neft Fondunun xərci gəlirindən çox olub (11)
- "Əsrin müqaviləsi"nin uzadılması təklif edilir (12)
- İctimai qurumların informasiya siyasəti gücləndiriləcək (13)
- Koalisiyanın fəaliyyəti monitorinq olunub (13)

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Milli Məclis yeni neft sazişlərini ratifikasiya edib

Mayın 22-də Milli Məclisdə Hasilatın Pay Bölgüsü (HPB – PSA -production sharing agreement) tipli növbəti 3 neft kontraktı ratifikasiya edilib: quruda yerləşən “Kürovdağ” blokunun işlənməsi üzrə (operator – Global Energy, Virgin adalarının Britaniyaya aid hissəsində qeydiyyatdan keçib) və “Neftçala”, “Xıllı”, “Durovdaq-Bazanan” yataqlarının işlənməsi üzrə (operator - Global Energy-nin törəmə şirkəti olan Neftchala Investment Ltd), həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Abşeron” dəniz blokunun işlənməsi üzrə (operator Total E&P Abşeron Bi.Vi.). Sazişlərdə Azərbaycan tərəfindən Dövlət Neft Şirkəti (dövləti təmsil edir) və onun Ortaq Neft Şirkəti iştirak edir.




Qeyd edək ki, “Kürovdağ” yatağı üzrə hələ 2004-cü ildə Caspian Energy Group şirkəti ilə ARDNŞ arasında HPB sazişi imzalanmışdı (pay bölgüsü 50/50). Bu saziş üzrə hər hansı işlərin aparılması barədə heç bir məlumat verilmir.

“Abşeron” bloku üzrə isə analoji saziş 1997-ci ildə “Total” (20 faiz), “Şevron” (30 faiz) və ARDNŞ (50 faiz) arasında imzalanmışdı. Xarici tərəfdaşlar blokda kəşfiyyat işləri apardıqdan sonra aşkarlanan ehtiyatların işlərin davam etdirilməsinə iqtisadi baxımdan imkan vermədiyi üçün sazişə xitam verilmişdi. Dünya bazarında neft və qazın qiymətinin sürətli bahalaşması blokun yenidən xarici şirkətlərin diqqətini cəlb etməsinə səbəb olub.

Xatırladaq ki, son müqavilələrlə 1994-cü ildən bəri Azərbaycanın neft-qaz sektorunda müxtəlif yataqların işlənməsi üzrə imzalanan HPB sazişlərinin sayı 28-ə yüksəlib. İndiyədək bu sazişlərin 11-nə xitam verilib. Onlardan biri - “Abşeron” bloku üzrə isə yenidən müqavilə imzalanıb.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

# Yeni neft sazişləri ictimaiyyətdə narahatlıq yaradıb

İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası Milli Məclisdə ratifikasiya olunmuş iki yeni neft sazişi ilə bağlı bəyanat qəbul edib. Bunlar quruda yerləşən "Kürovdağ" blokunun işlənməsi üzrə (operator – Global Energy, Virgin adalarının Britaniyaya aid hissəsində qeydiyyatdan keçib) və "Neftçala", "Xıllı", "Durovdaq-Bazanan" yataqlarının işlənməsi üzrə (operator - Global Energy-nin törəmə şirkəti olan Neftchala Investment Ltd) sazişlərdir. Bu sazişlərin imzalanması 2009-cu il fevralın 3-də ARDNŞ-nin mənzil-qərargahında baş tutub.

Bəyanatda bildirilir ki, həmin sazişlərlə bağlı tərəflər arasında danışıqların gedişi barədə ölkə ictimaiyyəti məlumatlandırılmayıb və onların açıq imzalanması mərasimi keçirilməyib: "Bu, müasir Azərbaycanın tarixində ilk belə haldır. Hətta Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) saytında da bu günə qədər həmin kontraktlar barəsində heç bir məlumat dərc edilməyib."

Koalisiya hesab edir ki, "bu hadisə indiyə qədər ölkədə neft sazişlərinin imzalanması sahəsində bərqərar olan yaxşı ənənədən ciddi sürətdə geri çəkilmə baş verdiyini və sazişlərin hazırlanması və bağlanması prosedurlarında xoşagəlməz tendensiyaya başlanğıc qoyulduğunu" deməyə əsas verir: "Bu faktı MSŞA Koalisiyası neqativ bir siqnal kimi qiymətləndirir. HPB sazişləri Azərbaycanın enerji siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bir sıra qonşu ölkələrin bu növ sazişlərə neqativ münasibəti fonunda Azərbaycanda neft və qaz sektoruna xarici investisiyanın cəlb edilməsi yönündə əsas və demək olar yeganə saziş növü kimi HPB-nin seçilməsi cəmiyyəti bir o qədər də narahat etmirdi. Belə ki, sazişlər bir qayda olaraq mərhələli müzakirədən keçir, imzalama mərasimi ictimaiyyətə təqdim olunur, sazişin xarici tərəfdaşları isə əsas etibarı ilə etibarlılığı ilə seçilən tanınmış beynəlxalq transmilli şirkətlər olurdu. Sonuncu hadisə ilə HPB sazişlərinin imzalanmasına sanki yeni və heç də uğurlu görünməyən qaydaların tədbiqinə başlanır.

Yeni sazişlərin cəmiyyətə heç bir açıqlama verilmədən bağlanması, həm də tərəfdaş kimi cəlb edilən və sazişlərdə 80 faizlik payla iştirak edən şirkətlərin nəinki kifayət qədər tanınmış olmaması, həmçinin onların ofşor zonalarda qeydiyyatdan keçmələri və barələrində ictimaiyyətin heç bir məlumatının olmaması vətəndaş cəmiyyəti üzvlərini ciddi narahat etməyə başlamışdır.

Əgər əvvəlki sazişlərdə HPB sazişlərinin ölkəyə vacibliyi xarici partnyorların yüksək texnologiya və nou-hau-su vasitəsilə yataqların daha səmərəli işlənməsi və bununla ölkəyə çatası mənfəət neft və qazının artması ilə izah edilirdisə, son sazişlərdə arqumentlərin nədən ibarət olması sual altında qalır.

Azərbaycanın 16 yatağının işlənməsi ilə məşğul olan və 5 sazişdə tərəfdaş kimi çıxış edən bir şirkətin və ya şirkətlər qrupunun - Global Energy Azerbaijan Ltd. şirkəti və onun tərkibində olan qurumların - adının sorğu kitabçalarında belə olmaması, indiyəcən bir dəfə də olsun öz fəaliyyətinə dair mətbuat-konfransı keçirməməsi, hər hansı hesabat dərc etməməsi və hətta hər il keçirilən Caspian Oil & Gas sərgisinin stendlərində sadəcə istehsal göstəricilərini yerləşdirməməsi ictimaiyyəti və vətəndaş cəmiyyətini narahat etməyə bilməz."

MSŞA Koalisiyası təəssüflə bildirir ki, bütün bunlar Azərbaycanın bu yaxınlarda - 2009-cu ilin fevralında dünyada birinci və həməlik yeganə olaraq MHŞT-nin tamhüquqlu üzvü seçildiyi bir zaman baş verir. Koalisiya bunu Azərbaycanın imicinə və indiyəcən qazandığı uğurlara çox böyük zərbə hesab edir.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Koalisiya növbəti mərhələ üçün fəaliyyət prioritetlərini müəyyənləşdirib

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının 2009-2010-cu illər fəaliyyətinə dair layihə hazırlanıb. Koalisiya Şurasının 22 may tarixli iclasında təsdiq edilən layihədə 6 prioritet istiqamət üzrə fəaliyyətlər əksini tapıb. Bura

- Neft gəlirlərinin xərclənməsində şəffaflıq və səmərəliliyin artırılmasına nail olunması;
- Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün (EİTİ) dəyərləndirilməsi prosesində əldə edilmiş razılaşmaların (şərtlərin) reallaşdırılması;
- "Neft Fondu haqqında" Qanunun qəbul edilməsi məqsədilə vəkillik fəaliyyətinin qurulması; Tranzit EİTİ-ın Azərbaycanda tətbiqi imkanlarının araşdırılması;
- Qeyri-neft qaz hasilat müəssisələrinin MHŞT-yə cəlbi;
- Koalisiyanın fəaliyyətinin ictimaiyyətə, habelə beynəlxalq qurumlara çatdırılması işinin təkmilləşdirilməsi və vəkillik fəaliyyətinin genişləndirilməsi daxildir.

Koalisiyanın fəaliyyətinə, beynəlxalq səviyyədə EİTİ-la bağlı proseslərə, həmçinin Azərbycanın qeyri-neft qaz sektorundakı yeniliklərə dair operativ məlumatların hazırlanması və Koalisiyanın saytında yerləşdirilməsi məqsədilə cari ildən ayrıca informasiya xidməti yaradılacaq.

## Beynəlxalq EİTİ İdarə Heyətinin növbəti iclası keçirilib
## İclasda Azərbaycanda öhdəliklərin icra vəziyyəti müzakirə olunub

Mayın 14-15-də Vaşinqton Beynəlxalq EİTİ İdarə Heyətinin növbəti iclası keçirilib. İdarə Heyətinin üzvü İnqilab Əhmədovun verdiyi məlumata görə, Azərbaycandan iclasa EİTİ Katibliyinin rəhbəri Adil Məmmədov qatılıb. İdarə Heyətinin məşvərətçi üzvü olan Dövlət Neft Fondunu icraçı direktoru Şahmar Mövsümov tədbirdə iştirak etməyib.



AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

İclasda müzakirə olunan məsələlərdən biri tamhüquqlu üzv statusu alarkən Azərbaycan hökumətinin üzərinə götürmüş olduğu öhdəliklərin icra vəziyyəti olub. Bu barədə A.Məmmədov iştirakçılara məlumat verib. Məsələ ilə bağlı çıxış edən İ.Əhmədov dəyərləndirmə prosesi başa çatdıqdan sonrakı bir neçə ay ərzində öhdəliklərin icrası sahəsində heç bir irəliləyiş olmadığı üçün narahatlıqların yarandığını və müzakirələrin aparılması təklifinin irəli sürüldüyünü bildirib: "Lakin aprel ayından etibarən Çoxtərəfli İşçi qrupunun formalaşdırılması sahəsində fəaliyyətlərə başlandığı, prosesin irəli aparıldığını nəzərə alaraq, müzakirələrin İdarə Heyətinin sentyabrın 26-27-də Bakıda keçirilməsi nəzərdə tutulan növbəti iclasında aparılmasını təklif etdik. Bildirdik ki, həmin vaxta qədər real nəticələrin əldə olunacağına ümid edirik."

İdarə Heyətinin iclasında namizəd ölkələrdə status almaq istiqamətində aparılan işlərin vəziyyəti də müzakirə olunub. Verilən məlumatlardan aydın olub ki, bu prosesdə xeyli ləngimələr var. Belə ki, bir neçə ölkəyə dəyərləndirmə prosesinin yekunlaşması üçün martın 9-dək vaxt verilsə də, onlar bu müddətin uzadılmasını istəyiblər. Bunu isə prosesi həyata keçirəcək şirkətə ödəməyə vəsaitin olmaması ilə əsaslandırıblar. Həmin dövlətlər Dünya Bankının dəyərləndirmə prosesinin maliyyələşdirməsini xahiş ediblər. Lakin bu qurumun nümayəndələri dünya maliyyə böhranı şəraitində Dünya Bankının buna vəsait ayırmasının mümkün olmadığını bildiriblər: "Dünya Bankında hesab edirlər ki, dəyərləndirmə bilavasitə həmin dövlətlərin özlərinə lazım olduğu üçün pulu də özləri ayırmalıdırlar. Hazırda Liberiyada proses yekunlaşmaq üzrədir. İlin sonunadək Nigeriya və Qana, daha sonra isə Qazaxıstan, Kamerun və Monqolustan dəyərləndirmə prosesindən keçə bilər. İclasda həmçinin namizədliyə yeni üzvlər də qəbul olundu. Bunlar Albaniya, Burkino-Faso, Zambiya və Mozambikdir."

İ.Əhmədov Koalisiyanın İdarə Heyətinin Bakı iclasına ciddi hazırlaşmasının zəruri olduğunu vurğulayıb.

❋ ❋ ❋

## Koalisiyaya yeni üzvlər qəbul olunub

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasına yeni üzvlər qəbul olunub. Bu barədə qərar Koalisiya Şurasının mayın 22-də keçirilən iclasında qəbul olunub.

İclasda Azad Müəllimlər Birliyi və İnsan Hüquqları və Maarifçilik İctimai Birliyinin üzvlüyə qəbullar bağlı müraciətlərinə baxılıb. Qısa müzakirələrdən sonra Koalisiyanın fəaliyyətinə töhfə vermək imkanlarının olması nəzərə alınaraq, hər iki təşkilatın üzvlüyə qəbul olunması üçün gizli səsvermə keçirilib. Səsvermə nəticəsində Azad Müəllimlər Birliyi və İnsan Hüquqları və Maarifçilik İctimai Birliyi Koalisiya üzvlüyünə qəbul ediliblər.

Xatırladaq ki, MSŞA Koalisiyasının sonuncu Ümumi Yığıncağında üzvlərin sayının dəqiqləşdirilməsi barədə qərar qəbul olunmuşdu. Dəqiqləşmə zamanı 4 təşkilat - Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Milli Qrupu, Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti, Insan Huquqlari ve Ganunculugun Mudafiəsi Burosu və Sülh və Demokratiya İnstitutu Koalisiya üzvlüyündə qalmaq istəmədiklərini bildiriblər. Koalisiya Şurası onların bu mövqeyini qəbul etdikdən sonra qurumda 14 fərdi şəxs və 114 təşkilatdan ibarət 128 üzv qalmışdı. Şuranın qon qərarı ilə üzvlərin sayı 130 olub.

❋ ❋ ❋

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## “Neft Fondu haqqında” qanun layihəsi hazırlanıb




Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası “Dövlət Neft Fondu Haqqında” qanun layihəsi hazırlayıb. Layihəni hazırlayan ekspert qrupunun rəhbəri, Koalisiya Şurasının üzvü Əliməmməd Nuriyevin verdiyi məlumata görə, sənəd üzərində 2 hüquqşünas və 1 iqtisadçıdan ibarət mütəxəssis komandası işləyib: “Ekspertlər Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında normativ hüquqi aktlar, habelə dünyada ayrı-ayrı ölkələrdə mövcud olan Neft Fondlarının fəaliyyəti ilə yaxından tanış oldular. Bundan sonra qanun layihəsinin Konsepsiyası formalaşdırılaraq bilavasitə onun hazırlanması prosesinə start verilib.”

Qanun layihəsinin ilkin variantı ilə bağlı ekspert qrupu müzakirələri davam etdirir və layihənin daha da təkmilləşdirilməsi üzərində çalışır: “Bundan sonra layihə müxtəlif ekspertlərə, Neft Fonduna, Milli Məclis üzvlərinə, habelə müvafiq dövlət strukturlarına, Dövlət Neft Şirkətinə göndəriləcək, fikir və rəylər ümumiləşdiriləcək, zəruri halda layihəyə müvafiq düzəlişlər ediləcək: “Düşünürəm ki, layihə bağlı ilkin müzakirələr başa çatdıqdan sonra təkmilləşdirilmiş variantı üzrə işləri tamamlayaraq onun populyarlaşdırılması istiqamətində bir sıra addımların atılması zəruridir. Bura ilk növbədə media kampaniyasının aparılması, müxtəlif qrupların diqqətinin sənədə cəlb olunması, Milli Məclis, ARDNF, ölkədə fəaliyyət göstərən neft şirkətlərinin, beynəlxalq təşkilatların mütəxəssislərinin iştirakı ilə müzakirələrin təşkili və sair aiddir. Biz sonda qanun layihəsini rəsmi şəkildə Milli Məclis və Prezident Administrasiyasına təqdim edərək, onun qəbul olunmasına çalışacağıq.”

Qeyd edək ki, qanun layihəsi 4 fəsil və 23 maddədən ibarətdir. Layihədə Dövlət Neft Fondunun Milli Məclis qarşısında məsuliyyətli olması, qurumun Müşahidə Şurasının 9 üzvündən 6-nın vətəndaş cəmiyyəti, neft sektorundakı həmkarlar ittifaqları və elmi idarələrin nümayəndələrindən ibarət olmaqla təşkil edilməsi və digər mühüm məqamlar əksini tapıb.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Qızıl emalı zavodunun açılışı olub

Mayın 26-da Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin(ABMƏŞ) Gədəbəy qızıl-mis emalı zavodunun açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev də iştirak edib.

Açılışda verilən məlumata görə, ABMƏŞ 2006-2007-ci illərdə Gədəbəy kontrakt sahəsində yerləşən eyniadlı qızıl-mis yatağında almaz və əks-sirkulyasiya üsulları ilə ümumi dərinliyi 17700 metr olan 146 kəşfiyyat quyusu qazmaqla yatağın filiz ehtiyatlarını qiymətləndirib. Layihəyə mal-material, iş və xidmətlər ilə bağlı 50-yə yaxın subpodratçı təşkilat cəlb olunub. Kəşfiyyat, tikinti-quraşdırma işlərinə və avadanlığa ümumilikdə 60 milyon dollardan çox vəsait sərf edilib.



Bütün quyulardan götürülən nümunələrin əyar analizinin nəticələrinə əsasən qızılın 0,3q/t kənar miqdarı ilə ehtiyatların qiymətləndirilməsi ABŞ-ın Denver şəhərində SRK məsləhətçiləri tərəfindən müstəqil yerinə yetirilib. Aparılan tədqiqatlar və analizlər nəticəsində Gədəbəy yatağında 15,6 milyon ton filizdə orta hesabla 1,5 q/t qızılın, 12,2 q/t gümüşün və 0,24 faiz misin olması müəyyən edilib. Bu da yataqda təxminən 22 ton qızılın, 192 ton gümüşün və 37 min ton misin olması deməkdir. Yataqdaxili ehtiyatlar üzrə 7,6 milyon ton filizdə orta hesabla 1,86 q/t qızıl, 15,9 q/t gümüş və 0,24 faiz mis var. Bu isə təxminən 14 ton qızıl, 123 ton gümüş və 22 min ton mis deməkdir. Topa aşındırma texnologiyasından istifadə edərək, bu ehtiyatlardan təxminən 70 faiz - 9,8 ton qızıl, 50 faiz - 61,5 ton gümüş və 35 faiz - 7,7 min ton mis istehsal etmək mümkün olacaq. Zavodun illik orta filiz məhsuldarlığı 1200 tondur. Bildirilib ki, Gədəbəy yatağı dəniz səviyyəsindən orta hesabla 1500 metr yüksəklikdə Misdağ dağı ətrafında yerləşir. Misdağ dağının digər tərəfində topa aşındırma sahəsi üçün münasib hesab edilmiş dayaz dərə uzanır. Mədən tullantıları Misdağı əhatə edən dərələrə töküləcək. Ətraf süxurların yalnız kiçik bir hissəsi turşu formalaşdırıcı süxur kimi xarakterizə edilir. Aşındırma meydançasının konseptual və son layihə işi Avstraliyanın "Pertin Knight Piesold" firması tərəfindən tamamlanıb. Hazırda yatağın açılması partladıcı maddələr olmadan həyata keçirilir. Partlayış işləri isə müasir

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

partladıcı maddələrin tətbiqi ilə yerinə yetiriləcək və partlayış üçün təyin olunmuş vaxtla məhdudlaşacaq. Qızıl istehsalının 90 faizi sianidlərdən istifadə olunmaqla həyata keçirilir.

Zavodda dövr edən məhluldan qızılı ayırmaq üçün qatran texnologiyasından istifadə edilməsi nəzərdə tutulur. Yatağın istismarı zamanı 300-400 adamın işə götürülməsi gözlənilir. Hazırda sahədə 250 nəfər çalışır.

Əməliyyat xərclərinin Gədəbəy layihəsi üzrə ümumilikdə 88,1 milyon dollar, əsaslı məsrəflərin isə 33,8 milyon dollar olacağı proqnozlaşdırılır. Bu da hasil ediləcək bir ton filizin maya dəyərinin 11,5 dollar və ya istehsal olunacaq 1 unsiya qızılın maya dəyərinin 283,14 dollar olacağı deməkdir. Gədəbəy layihəsi üzrə ümumi gəlirin 229,1 milyon dollar, mənfəətin 107,2 milyon dollar olacağı gözlənilir.

Mərasimdə çıxış edən ABMƏŞ-in prezidenti Reza Vəziri bildirib ki, "Anqlo-Asiya Mininq MMC" London birjasında birinci və hələ də yeganə şirkətdir ki, yalnız Azərbaycan Respublikasındakı kapitalına əsaslanaraq qiymətləndirilib. İndiyə qədər müəssisənin yaradılmasında çalışan 400 nəfərdən 180-i Gədəbəy sakinidir. İşə düşdükdən sonra zavodda 3 növbədə 480 nəfərin işləyəcəyi nəzərdə tutulur.

Xatırladaq ki, Gədəbəydəki işləri ABMƏŞ Beynəlxalq Bankdan aldığı kreditlər hesabına maliyyələşdirib.

✵ ✵ ✵

## «Mədən Sənayesində növbəti sayı çapdan çıxıb




Aprel ayında «Mədən Sənayesində ŞƏFFAFLIQ» jurnalının növbəti - 9-cu sayı işıq üzü görüb. Jurnalın bu dəfəki sayında MSŞA Koalisiyası Şurasının əlaqələndiricisi Azər Mehtiyev və MSŞT üzrə Beynəlxalq İdarə Heyətinin üzvü İnqilab Əhmədovdan müsahibə götürülüb. Müsahibələrdə əsas məqamlar yaxınlarda ölkədə keçirilən MSŞT- nin dəyərləndirilməsi və Azərbaycanın sözü gedən quruma üzvlük statusunun təsdiq edilməsi prosesi, bu prosesin ölkəyə təsiri, üzvlük zamanı irəli sürülən şərtlərin yerinə yetirilməsi, həmçinin Koalisiyanın 2009- cu ildə qarşıda duran vəzifələri və s. əhatə edib

Jurnalda həmçinin Azad İqtisadiyyata Yardım Mərkəzinin rəhbəri Zöhrab İsmayılın "MSŞT- də Azərbaycan və Azərbaycanda MSŞT", İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramovun "Dövlət Neft Fondunun investisiya siyasəti", Nicat Dağların "Dünya maliyə böhranının Azərbaycana təsiri", Nurlan Mustafayevin "Mədən sənayesində fərdi hesabatlılıq", İlham

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Şabanın "Azərbaycan neftinə "içəridən" ötəri baxış", Dwnya Sakitin "Dünya qızıl bazarı inhisarlaşıb" araşdırma yazıları, həmçinin "Neft haqqında qanun niyə qəbul olunmur?", "Qlobal böhran neft pullarımızı idarə edən xarici bankları sarsıdıb", "Neftdən asılı büdcənin qaranlıqları" və s. kimi müəllif yazıları dərc edilib. Analitik-araşdırma xarakterli yazılarla yanaşı "Şəffaflıq" jurnalında MSŞA Koalisiyasının fəaliyyətini əks etdirən informasiyalar, eyni zamanda Milli Büdcə Qrupu və Azərbaycan Jurnalistlərinin Araşdırma Şəbəkəsinin məlumatları və s. də yer alıb.

Layihə çərçivəsində nəşr edildiyindən məhdud sayda olan jurnalla daha ərtaflı MSŞA Koalisiyasının www.eiti-az.org saytında tanış olmaq mümkündür.

Hazırda jurnalın növbəti sayının hazırlanması işləri aparılır.

✵ ✵ ✵

## Koalisiyanın 9-cu hesabatla bağlı rəyi Memorandum tərəfləri ilə müzakirə olunub

Aprelin 18-də Azərbaycanda Mədən Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsünün (EİTİ) icrası prosesində iştirak edən tərəflərin birgə toplantısı keçirilib. Dövlət Neft Fondunun binasında keçirilən toplantıda iki mühüm məsələ müzakirə olunub. Bunlardan biri Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının Təşəbbüs çərçivəsində ölkədə açıqlanan 9-cu hesabatla bağlı rəyidir. Xatırladaq ki, Koalisiya 9-cu hesabatla bağlı rəyini Memorandum tərəflərinə yanvarda təqdim etmişdi.

Toplantıya EİTİ üzrə Hökumət komissiyasının rəhbəri Şahmar Mövsümov sədrlik edib. Gündəliyin müzakirəsi zamanı Koalisiya nümayəndələrinin təklifi ilə EİTİ üzrə İşçi Planla bağlı məsələ gündəlikdən çıxarılıb. İlk olaraq toplantıda Koalisiyanın 9-cu hesabatla bağlı rəyi bənd-bənd müzakirə olunub. Bu sıradan Koalisiya ekspertlərinin hesabatların sazişlər üzrə ayrılıqda verilməsi barədə təklifi geniş müzakirə ilə yadda qalıb. Belə ki, Hökumət komissiyasının sədri bunu fərdi hesabatlılıqla eyniləşdirsə də, Koalisiya üzvü İnqilab Əhmədov sazişlər üzrə hesabatlılıq dedikdə, nəyi nəzərdə tutduqlarını iştirakçılara anlatdı. Onun sözlərinə görə, "Şahdəniz" layihəsindən gəlir əldə olunmağa başladığı üçün sazişlər üzrə ümumi hesabat verildikdə, gəlirlərin hansı layihədən daxil olduğunu müəyyənləşdirmək mümkün olmur: "Hesab edirik ki, sazişlər üzrə məlumatlar ayrı-ayrılıqda verilərsə, bu, həm də fərdi hesabatlılığa doğru bir addım olar."

Toplantıda iştirak edən "Exxon" və "Statoil" şirkətlərinin nümayəndələri fərdi hesabatlılığa kommersiya sirrinin qorunması baxımından razı olmadıqlarını qeyd ediblər. Maraqlıdır ki, onlar əslində fərdi hesabatlılıq dedikdə, EİTİ çərçivəsində təqdim etdikləri hesabatların açıqlanmasının nəzərdə tutulduğunu bilmirlər. Bu, onların çıxışlarından aydın hiss olunmaqla, təklifi irəli sürən Koalisiya nümayəndələrinin şirkətlərlə işi gücləndirməsi üçün bir siqnal hesab olunmalıdır. Daha bir maraqlı məqam ARDNŞ-nin ilk olaraq fərdi hesabatlılığa keçərək nümunə göstərməklə digər şirkətləri də bu prosesə qoşulmağa təşviq etməsinin mümkünlüyü barədə Koalisiya nümayəndələrinin təklifinə Ş.Mövsümovun etiraz etməsi olub. Belə ki, təklifə ARDNŞ-nin tədbirdə iştirak edən vitse-prezidenti Elşad Nəsirovdan daha əvvəl münasibət bildirən Hökumət komissiyasının rəhbəri deyib ki, bu, kommersiya sirrinin qorunması baxımından ARDNŞ üçün əlverişli deyil. Koalisiyanın Şura üzvü Mirvari Qəhrəmanlı bp şirkətinin hər il öz hesabatlarının ictimaiyyətə açıqladığını və bu zaman heç bir itkiyə məruz qalmadığını xatırlatdıqda isə Ş.Mövsümov "yəqin ki, bizim Neft Şirkəti də bp kimi inkişaf səviyyəsinə çatdıqdan sonra bunu edəcək" fikrini söyləyib.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Koalisiyanın hesabatların doldurulması zamanı şirkətlərin eyni səhvləri dəfələrlə təkrarlamasından olan narahatlığı auditor şirkəti də bölüşür. Belə ki, tədbirdə iştirak edən 9-cu hesabat məlumatlarını tutuşduran "Moore Stephens" şirkətinin nümayəndəsi onların belə səhvlərin aradan qaldırılması üçün şirkətlərə tövsiyələr hazırladıqlarını qeyd edib.

Hesabatların açıqlanması müddətinin gecikməsi barədə Koalisiyanın iradına cavab olaraq Hökumət komissiyasının sədri bunun adətən şirkətlərin hesabat formalarını vaxtında auditora təqdim etməmələrindən irəli gəldiyini söyləyib. Koalisiyanın koordinatoru Azər Mehtiyev növbəti dəfə belə şirkətlərin adlarının açıqlanmasını təklif edib və Ş.Mövsümov bu təkliflə razılaşıb. Bundan əlavə, Koalisiya nümayəndələri hesabat və auditor rəyinin ictimaiyyətə vətəndaş cəmiyyətinin onunla bağlı rəyi ilə birlikdə açıqlanmasını təklif ediblər. Müzakirələrdən sonra qərara alınıb ki, hesabat və auditor rəyi ictimaiyyətə Koalisiyanın rəyi ilə birlikdə açıqlansın. Buna qədərsə yalnız hesabatın verilməsi barədə informasiya yayılsın.

Auditor şirkətinin nümayəndəsi sonda hazırladıqları tövsiyələri iştirakçıların diqqətinə çatdırıb. Bunlar texniki səhvləri aradan qaldırmaq üçün şirkətlərdə hesabatları həmişə eyni adamların hazırlaması; formalar tərtib edilərkən müvafiq təlimatlardan istifadə edilməsi və şirkətlərin hesabat doldurulan zaman meydana çıxan suallarla auditora deyil, EİTİ üzrə Katibliyə müraciət etmələridir.

## EİTİ üzrə Çoxtərəfli Qrupun formalaşdırılmasına başlanıb

Aprelin 18-də Azərbaycanda Mədən Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsünün (EİTİ) icrası prosesində iştirak edən tərəflərin (neft-qaz sektorunda çalışan şirkətlər, Hökumət komissiyası və İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) Koalisiyası) birgə toplantısında müzakirə olunan mühüm məsələlərdən biri ölkədə EİTİ üzrə Çoxtərəfli Qrupun yaradılması olub.

Xatırladaq ki, Çoxtərəfli Qrupun formalaşdırılması dəyərləndirmə prosesindən sonra Azərbaycana tamhüquqlu üzv statusunun verilməsi zamanı Beynəlxalq EİTİ İdarə Heyəti qarşısında Azərbaycan hökumətinin üzərinə götürdüyü öhdəliklərdən biridir. Toplantıya sədrlik edən Hökumət komissiyasının sədri Şahmar Mövsümovun çıxışında qeyd etdiyi kimi, dəyərləndirməni aparan validatorun (Coffey İnternational şirkəti) Azərbaycan hökumətinin razılaşmadığı bu tövsiyəsi sentyabr ayınadək icra olunmalıdır.

Tərəflərin birgə toplantısında MSŞA Koalisiyasının koordinatoru A.Mehtiyev Şurada Çoxtərəfli qrupla bağlı müzakirələrin aparıldığını və Koalisiyanın mövqeyinin razılaşdırıldığını söylədi. O, Hökumət komissiyasının görüşdən bir gün əvvəl tərəflərə göndərdiyi layihədə (Layihədə qrupun hər tərəfdən 5 nəfər olmaqla yaradılması təklif olunur) bir çox məsələlərin əksini tapmadığını qeyd edib: "Bura ilk növbədə qrupun səlahiyyətləri, orada təmsil olunan tərəflərin hüquqları, qərarların qəbul olunması prosedurları və sair aiddir." Hökumət komissiyasının rəhbəri qrupda qərarların birmənalı olaraq konsensusla qəbul olunacağını söyləyib. Koalisiyanın qrupun iclasına tərəflərin növbəlilik əsasında sədrlik etməsi təklifinə digər tərəflərdən xüsusi bir etiraz bildirilməyib. Lakin Qrupun fəaliyyətini tənzimləyəcək sənədin hazırlanması ilə bağlı Koalisiya nümayəndələri ilə Hökumət komissiyasının mövqeyi xeyli fərqli olub. Belə ki, Koalisiyanın Qrupun əsasnamə ilə fəaliyyət göstərməsi təklifini Hökumət komissiyasının rəhbəri qəbul etməyib. Koalisiya Şurasının üzvü Oqtay Gülalıyev bütün ciddi qurumların fəaliyyətinin müvafiq sənəd əsasında tənzimləndiyini bildirdikdən sonra Ş.Mövsümov belə bir sənədin

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

hazırlanmasının zəruriliyini qəbul etdiyini desə də, onun adının əsasnamə olmamasında təkid edib. Müzakirələrdən sonra Ş.Mövsümovun təklifi ilə Çoxtərəfli Qrupun formalaşdırılması prosesini operativ qaydada aparmaq üçün üçtərəfli İşçi qrupunun yaradılması və bütün təkliflərin qrup vasitəsilə uzlaşdırılması qərara alınıb.

Koalisiya Şurasının aprelin 24-də keçirilən iclasında qeyd olunan işçi qrupunda qurumu təmsil edəcək şəxslər müəyyənləşdirilib. Bunlar Şuranın koordinatoru Azər Mehtiyev, Şura üzvü Oqtay Gülallıyev və Koalisiya üzvü Zöhrab İsmayıldır.

✵ ✵ ✵

## İlk üç ayda Neft Fondunun xərci gəlirindən çox olub

2009-cu ilin yanvar-mart ayları ərzində Azərbaycan Dövlət Neft Fondunun büdcə gəlirləri 1 349,2 milyon manat, büdcə xərcləri isə 1 398,7 milyon manat təşkil edib.

Bu barədə Fondun mətbuat xidmətinin yaydığı məlumata görə, 2009-cu ilin yanvar-mart ayları ərzində qurum neft sazişlərinin həyata keçirilməsi ilə bağlı 1 274,5 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 1 272,2 milyon manat, tranzit haqqı olaraq 2,1 milyon manat, Bakı-Tiflis-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsi üzrə dividentlərdən 0,1 milyon manat, xarici sərmayəçilər tərəfindən təhvil verilmiş aktivlərdən 0,1 milyon manat gəlir əldə edib.




Ötən rüb ərzində Neft Fondunun vəsaitlərinin idarə olunmasından əldə olunan gəlir 74,7 milyon manata bərabər olub.

Xərclərə gəlincə, hesabat dövrü ərzində Fondun 2009-cu il büdcəsinin icrası çərçivəsində 1 330,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Bundan əlavə,

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə Fonddan 8,4 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması və Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilişi layihələrinin maliyyələşdirilməsi məqsədilə müvafiq olaraq 46,3 milyon manat və 11,3 milyon manat vəsait ayrılıb, 0,4 milyon manat "Bakı-Tiflis-Qars yeni dəmir yolu" layihəsinin maliyyələşdirilməsinə yönəldilib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə isə Neft Fondundan 1,1 milyon manat vəsait ayrılıb.

Cari ilin birinci rübü ərzində Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri 1,2 milyon manat, valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı büdcədənkənar xərcləri isə 215,8 milyon manat təşkil edib.

2009-cu il aprelin 1-ə Fondun aktivləri 8 721,4 mln. manata (10 863,9 milyon ABŞ dolları) bərabər olub.

Bu arada mətbuatın suallarını cavablandıran icraçı direktor Şahmar Mövsümov Fondun builki büdcəsinə hər hansı dəyişikliyin edilməsi məsələsinin gündəlikdə durmadığını bildirib.

✲ ✲ ✲

## "Əsrin müqaviləsi"nin uzadılması təklif edilir

"Əsrin müqaviləsi"nin iştirakçıları Azərbaycan hökumətinə müqavilənin müddətinin uzadılmasını təklif ediblər. APA Informasiya Agentliyinin məlumatına görə, bu barədə Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoru Şahmar Mövsümov bildirib. Icra,; direktorun sözlərinə görə, hazırda bu məsələ ilə bağlı müzakirələr aparılır: "Müqavilə 2024-cü ildə bitəcək. Biz müqavilənin müddətinin uzadılmasına hələlik tələsmirik. "Əsrin müqaviləsi"nin iştirakçılarına da hələlik nə müsbət, nə də mənfi cavab vermişik".



AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Qeyd edək ki, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi layihəsinə dair müqavilə - "Əsrin müqaviləsi" 1994-cü ilin sentyabr ayında imzalanıb. AÇG yataqlarının işlənməsi layihəsində BP (operator - 34,1%), "Chevron" (10,2%), ARDNŞ (10%), "Inpex" (10%), "Statoil" (8,6%), "ExxonMobil" (8%), TPAO (6,8%), "Devon" (5,6%), "Itochu" (3,9%) və "Hess" (2,7%) şirkətləri iştirak edir.

❋ ❋ ❋

## İctimai qurumların informasiya siyasəti gücləndiriləcək

Mayın 8-də Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası (MSŞA), Milli Büdcə Qrupu (MBQ) və Araşdırmaçı Jurnalistlərin Azərbaycan Şəbəkəsinin (AJAŞ) informasiya və çap məhsullarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə görüş keçirilib. Görüşdə MSŞA Koalisiyasının əlaqələndiricisi Azər Mehtiyev, Koalisiya jurnalının baş redaktoru Oqtay Gülalıyev, jurnalın redaktor yardımçısı Nicat Dağlar, Koalisiya bülletenin redaktoru Dünya Sakit, AJAŞ İdarə Heyətinin üzvü Hicran Həmidova, koordinatoru Lalə Rəhimova və Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun proqram rəhbəri Fidan Nəcəfova iştirak ediblər.

Fəaliyyətlərin əlaqələndirilməsi və informasiya işinin təkmilləşdirilməsi ilə bağlı məsələlərin müzakirə olunduğu görüşdə bir sıra fikirlər səsləndirilib. Bildirilib ki, birliklər tərəfindən Azərbaycanın əldə etdiyi neft gəlirlərinin şəffaflığı, səmərəli xərclənməsi və sair istiqamətlərdə xeyli işlər görülsə də, bu barədə ictimaiyyətin məlumatlandırılması sahəsində vəziyyət qənaətbəxş deyil. Bu vəziyyəti dəyişmək üçün qərara alınıb ki, hər üç qurumun informasiya siyasətini həyata keçirən şəxslərin ayda bir dəfə görüşü təşkil olunsun, AJAŞ üzvlərinin sanballı araşdırmalarının Koalisiyanın "Mədən Sənayesində Şəffaflıq" jurnalında çap edilsin, həmçinin İnternet saytında yerləşdirilsin. Bundan əlavə, qurumların İnternet saytlarının yenidən işlənməsi, informasiya axınlarının izlənərək, operativ yenilənmənin təmin olunması istiqamətində fəaliyyətlərin gücləndirilməsi, saytlarda ingilis və rus dilində materialların yerləşdirilməsi işinin təşkil olunması da qərara alınıb.

Görüşdə Koalisiya üzvü olan jurnalistlərin AJAŞ-ın işinə dəstək vermək imkanları da müzakirə olunub.

❋ ❋ ❋

## Koalisiyanın fəaliyyəti monitorinq olunub

Açıq Cəmiyyət İnstitutu Yardım Fondu Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının 2008-ci ilin ikinci yarısı və 2009-cu ilin ötən dövrü ərzindəki fəaliyyətini monitorinq edib. Fondun sifarişi ilə aparılan monitorinq zamanı Koalisiyanın fəaliyyət planının icrası vəziyyəti öyrənilib, vahid layihə istiqamətləri üzrə, həmçinin dəyərləndirmə prosesi çərçivəsində görülən işlər qiymətləndirilib. Məhdud sayda Koalisiya üzvü və Koalisiya Şurasının koordinatoru ilə müsahibələr aparılıb.

Aydın olub ki, vahid layihə istiqamətlərindən biri üzrə işlərdə müəyyən ləngimələr var. Eyni zamanda monitorinqi aparanlar hesab ediblər ki, dəyərləndirmə prosesində aktiv işləyərək son qərarın qəbuluna təsir etməyi bacarsa da, Koalisiyanın informasiya siyasətinin və fundreyzinq işinin gücləndirilməsinə ehtiyac duyulur. Monitorinqin nəticələri əsasında aşağıdakı tövsiyələr irəli sürülüb:

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

1. Koalisiyanın uzunmüddətli fəaliyyət strategiyası işlənib hazırlanmalı, hasilat sənayesi ilə bağlı qlobal dəyişikliklər və təşəbbüsün genişlənmə meylləri burada nəzərə alınmalıdır;

2. Koalisiya layihələrinin vahid qiymətləndirmə matrisi işlənməli və layihələr ən azı bir dəfə bu matris üzrə effektivlik, siyasətə təsir, xərclənmələrin səmərəliliyi və hədəf qruplarına çıxış meyarları əsasında qiymətləndirilməlidir;

3. Dövlət orqanları və şirkətlərlə işlər intensivləşməli, qarşılıqlı görüşlərin və məlumat mübadiləsinin intensivliyi artırılmalıdır;

4. Koalisiya üzvlərinin neft-qaz kontraktları, beynəlxalq enerji bazarındakı yeniliklər, maliyyə böhranı şəraitində neft-qaz gəlirlərinin idarə edilməsi ilə bağlı bilgilərinin yenilənməsi məqsədilə treninq proqramı bərpa olunmalıdır.

Qeyd edəki ki, monitorinqin nəticələri Koalisiya Şurasında müzakirə edilib. Müzakirələr zamanı Şura üzvləri monitorinq prosesinin Şuranın və Koalisiya üzvlərinin xəbəri olmadan aparılmasını mənfi hal kimi qiymətləndiriblər. Onların fikrincə, daha obyektiv məlumatların əldə edilməsi üçün Koalisiyanın daha çox üzvü və Şuranın tam tərkibinin rəyi öyrənilməli idi.